**A**zərbaycan Milli Elmlər Akademiyasının Lənkəran **Regional Elmi** Mərkəzində Azərbaycan Yazıçılar Birliyi Lənkəran **Bölməsinin** birgə təşkilatçılığı ilə akademiyanın 80 illiyinə həsr **olunmuş silsi**lə tədbirlər çərçivəsində "Regionun yaradıcı adamları: **Yazıçı-drama**turq, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin **100 illik yu**bileyi" mövzusunda elmi seminar keçirilib.

# Məmmədhüseyn Əliyevin 100 illik yubileyi qeyd olunub




Tədbiri açan Mərkəzin direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Əliyev qonaqları və iştirakçıları salamlayıb və deyib: -100 illiyini qeyd etdiyimiz Azərbaycanın görkəmli yazıçısı, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin Cənub regionunda ədəbi mühitin yüksək səviyyədə inkişafında mühüm xidmətləri olub. Yaradıcılığa şerlə başlayan dahi qələm əhli sonralar nəsrə keçmiş, "Dağlar oğlu", "Dağda bahar", "Torpağın ətri", "Döyüşən illər" romanlarını, bir çox povest və hekayələrini yazmışdır. Ədibin Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulan "Prokuror", "Ana fəryadı", "Kölgəli üz" pyesləri teatr həvəskarları tərəfindən alqışlarla qarşılanıb.

Məmmədhüseyn müəllim öz həyatını demək olar ki, xalqı, Vətəni üçün yaşamışdı. O, keçən əsrin 50-ci illərinin axırlardan etibarən ömrünün sonunadək - 6 iyul 1994-cü il tarixədək Lənkəranda müxtəlif məktəblərdə və texnikumlarda müəllim, direktor və direktor müavini, Lənkəran rayon yerli radio verilişləri redaksiyasının məsul redaktoru, indiki Azərbaycan Yazıçılar Birliyi Lənkəran Zona Şöbəsinin məsul katibi vəzifələrində çalışıb, regionumuzda romançılıq məktəbinin əsasını qoyub.

Söz Azərbaycan Yazıçılar Birliyi Lənkəran Bölməsinin sədri, yazıçı-dramaturq Qafar Cəfərliyə verilən də o, bildirib ki, Məmmədhüseyn müəllimin 100 illik yubileyi təntənə ilə qeyd edildi. Tədbirlərə ilk dəfə görkəmli yazıçının dünyaya göz açdığı Lerik rayonunda start verildi. Lənkəran Dövlət Dram Teatrında yazıçının "Kölgəli üz" pyesinin premyerası uğurlu alındı. Daha sonra Azərbaycan Yazıçılar Birliyinin Natəvan adına klubunda əlamətdar yubiley münasibətilə maraqlı tədbir baş tutdu. Lənkəran Regional Elmi Mərkəzi ilə birgə keçirilən elmi seminar da yüksək səviyyədə təşkil olunub. Yekun tədbirin Masallı şəhərində keçirilməsi nəzərdə tutulub.

Sonra tədbirlə bağlı məruzələr dinlənilib.

"Məmmədhüseyn Əliyevin həyat və yaradıcılığı; çap olunmamış əsərləri haqqında bir neçə söz" mövzusunda məruzəsində yazıçı-dramaturqun həyat və fəaliyyəti, əsas yaradıcılıq istiqamətləri, yaradıcılığının spesifik xüsusiyyətləri haqqında məlumat verən Lənkəran Regional Elmi Mərkəzinin Ədəbiyyat və azsaylı xalqların folkloru şöbəsinin müdiri Sərraf Talıbov daha sonra onun nəşr olunmamış əsərləri barədə geniş danışıb: "Məmmədhüseyn müəllimin arxivində saxlanılan bir çox əsərlər hələ də çapını gözləyir. Yazıçının arxiv materialları nəsr, dramaturgiya, şer, elmi və etnoqrafik məqalələr, publisistik yazılardan ibarətdir. Onun arxivində "Lənkəran iztirabları" və "Qovuşmaz yollar" romanları, tarixi mövzuda yazdığı "Dəmir ağac", eləcə əfsanəvi mövzuda qələmə aldığı "Cin dərəsi" hekayələri, "Həyata sualım", "İntizarın sonu" və "Bəyaz qadın" pyesləri, yeni formatda, yeni yanaşmada yazdığı "Kərbəla faciəsi" əsəri, "İran və İraqda gördüklərim" səyahət qeydləri və s. dərc olunmayıb. Əməkdar jurnalist Həmzə Vəlimməmmədov "Şərəfli, mənalı ədib ömrü" məqaləsində yazmışdır: "Məmmədhüseyn müəllim 20-yə yaxın əsərini sağlığında çap etdirə bilmədi. Bu əsərlər latın qrafikası ilə nəşr olunmasını gözləyir. Bölgənin ziyalıları, iş adamları xeyirxah işə təşəbbüs göstərsələr, geniş oxucu auditoriyasına dəyərli hədiyyə olar".

Mərkəzin Tarix, arxeologiya və etnologiya şöbəsinin əməkdaşı İltifat Əhmədov "Məmmədhüseyn Əliyevin "Şəfəq" i - ətrafa işıq səpələyən yeni bir çıraq" adlı məruzəsində bildirib ki, adı çəkilən toplunun ilk sayı 1991-ci ilin may ayında Lənkəran mətbəəsində çapdan çıxmışdır. Məcmuədə Neftçala, Biləsuvar, Cəlilabad, Masallı, Yardımlı, Lerik, Astara və Lənkəran rayonlarında işləyən və yaşayan müəlliflərin ədəbi-bədii əsərlərinin nəşri jurnalın ətrafa işıq səpələyən yeni bir çıraq kimi Cənub bölgəsi qələm sahiblərin qarşısına çıxan çətinlikləri aradan qaldırılmasında mayak rolunu oynadı. "Manşetdə "Zonamızın ədəbi istedadları, birləşin!" çağırışı həqiqətən şair və yazıçıları bir araya topladı, onların ədəbi-bədii nümunələrinin işıq üzü görməsinə əlverişli şərait yaratdı. Nəşrdə, həmçinin "Cənubdan səslər" rubrikası altında Güney Azərbaycanda yaşayıb-yaradan soydaşlarımız Əlirza Bəndəlizadə, Mənuçehr Cavanşir, Nemət Həqiqi, Mənsur Bənimecidi, Yusif Memar və Behruz Nemətullahinin də şerlərinə rast gəlirik.

"Zəngin yaradıcılıq yolu keçən Məmmədhüseyn Əliyev hələ gənclik illərində çap olunan "Dağlar oğlu" romanında çoxsaylı folklor nümunələrindən istifadə edib, ümumilikdə 60 fəsildən ibarət olan bu əsərin hər fəslini bir atalar sözü, aforizmlə adlandırıb. Xalq müdrikliyindən bəhrələnən yazıçı ikinci kitabı olan "Dağda bahar" romanında da bu ənənəyə sadiq qalıb. Yazıçının gücü ondadır ki, fəsillərin adları əsərdəki hadisələrin fonunda öz fəlsəfi, psixoloji və bədii həllini tapır. Hər fəslin adı kimi, yaxud mətn daxilində işlənən bu müdrik fikirlərin bir çoxu müəllifin özünün yaratdığı aforizmlərdir. Ötən əsrin 60-cı illərinə qədər çap olunmuş "Atalar sözü" kitabına baxdıqda, bu atalar sözlərinin bir çoxunun o kitablarda olmadığını görürük". Bu səmimi fikirləri isə Mərkəzin Ədəbiyyat və azsaylı xalqların folkloru şöbəsinin əməkdaşı Ağamir Cavadov "Məmmədhüseyn Əliyevin yaradıcılığında folklor motivləri" mövzusunda etdiyi məruzəsində söyləyib.

Digər çıxışçılar- yazıçı-publisistlərdən Hacı Etibar Əhədov, Siyavuş Süleymanlı, Hacı Hafiz Mirzə, ədibin qızı, fəlsəfə elmləri doktoru Sədaqət Əliyeva, ağsaqqal ziyalı Hacı Fəxrəddin müəllim yazıçı ilə bağlı rəy və mülahizələrini söyləyib, xatirələrini dilə gətiriblər. Eləcə elmi seminarda iştirak edən Lənkəran Dövlət Universiteti Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasının 3-cü kurs tələbələri Zəhra Həşimova və Esmira Rüstəmovanın suallarına filosof-alim Sədaqət Əliyeva dolğun faktlar əsasında cavab verib.

Axırda Məmmədhüseyn Əliyevin oğlu, həkim Ənvər Rüstəmov atasının xatirəsinə göstərilən dərin ehtirama və tədbirin yüksək səviyyədə təşkilinə görə Lənkəran Regional Elmi Mərkəzin, AYB Lənkəran bölməsinin rəhbərlərinə, bütün iştirakçılara ailə üzvləri adından minnətdarlıq edib.

**Səhifəni hazırladı:**

*Zəfər Orucoğlu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*